## Qarabağın görkəmli simaları

# Kamran Məmmədov 1922-1989

***Filologiya elmləri doktoru, professor Kamran Dadaş oğlu Məmmədov 21 dekabr 1922-ci ildə Şuşa şəhərində anadan olmuşdur.***

Orta məktəbin yeddiillik sinfini bitirdikdən sonra, 1936-1938-ci illərdə Bakı Pedaqoji Texnikumunda təhsil almışdır. O, təhsilini 1938-1941-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun Dil və ədəbiyyat fakültəsində davam etdirmişdir. 1941-1942-ci illərdə II Dünya müharibəsində iştirak etdiyi üçün təhsilini yarımçıq qoymağa məcbur olmuş, 1943-cü ildə ağır yaralandıqdan sonra hərbi hospitalda müalicə almışdır: Daha sonra Kamran Məmmədov 1943-1945 illərdə ali təhsilini Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) başa vurmuşdur.

***Kamran Məmmədov 1944-1945 illərdə Azərbaycan Dövlət Radio Verilişləri Komitəsində ədəbi redaktor, 1945-1947 illərdə Uşaqgəncnəşrdə şöbə müdiri, 1945-1951-ci illərdə Azərbaycan Elmlər Akademiyasının (indiki AMEA Nizami adına Ədəbiyyat İnstitutu) Dil və Ədəbiyyat İnstitutunda aspirant, elmi işçi işləmişdir.***

O, eyni zamanda 1948-1952 illərdə



Pedaqoji Xarici Dillər İnstitutunda baş müəllim işləmişdir.

Həmçinin Azərbaycan Elmlər Akademiyası Nizami adına Dil və Ədəbiyyat İnstitutunda bir müddət baş elmi işçi vəzifəsində çalışdıqdan sonra, 1961-1986-cı illərdə "XX əsr Azərbaycan ədəbiyyatı" şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1986-cı ildən ömrünün sonuna kimi Nizami adına Ədəbiyyat İnstitutunda elmi məsləhətçi olmuşdur.

Kamran Məmmədov "Əməkdar elm xadimi" (1982), "Qabaqcıl maarif xadimi"(1982) fəxri adlarına layiq görülmüş, "Şərəf nişanı", 2-ci dərəcəli Vətən müharibəsi ordenləri və medallarla təltif olunmuşdur.

O, Azərbaycan və Türkiyə Ensiklopediyalarının üzvü olmuşdur.

Kamran Məmmədovun XIX-XX əsrlər Azərbaycan ədəbiyyatına dair monoqrafik tədqiqatları, ədəbi-tənqidi məqalələri vardır.

O, 1971-ci ildə Azərnəşrdə çap edilən ikicildlik Əbdürrəhim bəy Haqverdiyevin "Seçilmiş əsərləri"nin, 1984-cü ildə nəşr olunan Qasım bəy Zakirin "Seçilmiş əsərləri"nin tərtibçisidir.

Kamran Məmmədov üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi"-nin (1957-1960) müəlliflərindən biridir. Kamran Məmmədov, eyni zamanda bədii nəsr, xatirə və publisistikaya aid əsərlərin də müəllifidir.

Onun rəhbərliyi altında 12 namizədlik dissertasiyası müdafiə edilmişdir. O, 70-ə qədər namizədlik və doktorluq dissertasiyalarına rəsmi opponent olmuşdur.

Kamran Məmmədov 6 aprel 1989-cu ildə Bakıda vəfat etmişdir.